# Belə getsə, Orta dəhlizin ortağı olmayacaq

**Brüsseldə Orta dəhlizlə bağlı forumda Avropa Komissiyasının vitse-prezidenti Valdis Dombrovskis Avropa və beynəlxalq maliyyə qurumlarının Mərkəzi Asiyada dayanıqlı nəqliyyat əlaqələrinə dəstək və investisiya üçün 10 milyard avro ayıracaqlarını bəyan etdi.**

Trans-Xəzər nəqliyyat dəhlizinin Avropa və Mərkəzi Asiyanı birləşdirə bilən müasir, çoxsaylı və effektiv marşruta çevrilməsi "qoca qitə" üçün çox vacibdir. Vacibliyi də ondan ibarətdir ki, bu marşrut Avropa ilə Asiyanı Rusiyadan yan keçən etibarlı və effektiv ticarət yollarını formalaşdırmaq imkanına malikdir. Bunun üçün Avropa İnvestisiya Bankı Qazaxıstan, Qırğızıstan və Özbəkistan hökumətləri ilə ayrı-ayrılıqda ümumilikdə 1,47 milyard avro dəyərində müqavilələr imzalayıb. Eyni zamanda Avropa Yenidənqurma və İnkişaf Bankının Qazaxıstanla ümumi dəyəri 1,5 milyard avro olan Anlaşma Memorandumu imzalayacağı gözlənilir.

Xatırladaq ki, Trans-Xəzər nəqliyyat dəhlizi (Orta dəhliz) 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonra layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Həmin marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Marşrutun səmərəliliyini təmin etmək üçün marşrut boyu vahid tarif və "vahid pəncərə" prinsipi tətbiq olunur. Onu da qeyd edək ki, ənənəvi marşrutlarda yaranan problemlər Orta dəhlizə olan marağı diqqət mərkəzinə gətirib. Şirkətlər husilərin hücumları nəticəsində Asiya ilə Avropanı birləşdirən Qırmızı dəniz-Süveyş kanalı marşrutu gəmilər üçün təhlükəyə çevrildiyinə görə iki qitəni birləşdirən etibarlı beynəlxalq marşrut kimi Orta dəhlizi seçirlər.

Hazırda bu dəhliz üzərindən yükdaşımaların həcmini artırmaq üçün ciddi işlər görülür. Həmişə olduğu kimi, bütün vacib məsələlər yenə də Bakıda müzakirə edilir. Bu baxımdan "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" (TBNM) Beynəlxalq Assosiasiyasının növbəti 22-ci iclasının da paytaxtımızda keçirilməsi təsadüfi deyil.

Azərbaycanla yanaşı, Gürcüstan, Qazaxıstan, Ukrayna, Türkiyə, Çin, Polşa, Litva, Sinqapur, Bolqarıstan və Rumıniyanın əlaqədar qurumlarının nümayəndələrinin iştirak etdikləri tədbirdə "Qazaxıstan Dəmir Yolu" SC (KTJ) şirkətlər qrupu ilə "PTC Holding" arasında anlaşma və qarşılıqlı dəstək haqqında memorandum təsdiqlənib. Bundan əlavə, "Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili haqqında" və "Fider gəmilərin yüklənməsinin təmin edilməsi haqqında" sazişlər imzalanıb. Həmin iclasda "Poti TransTerminal" SC (Gürcüstan), "Xi'an Free Trade Port Construction and Operation Co., LTD" (Çin) və "UZ Cargo Poland Sp. z o.o." (Polşa) TBNM Beynəlxalq Assosiasiyasının assosiativ üzvlüyünə rəsmi qəbul olunublar.

TBNM Beynəlxalq Assosiasiyasının ümumi yığıncağında həmçinin Azərbaycan və Gürcüstan dəmir yollarının inventar parkında istifadə üçün fitinq platformalarının ayrılmasına və "Qazaxıstan Dəmir Yolları" tərəfindən vaqon yardımının göstərilməsinə razılıq verilib. Həmin qərara əsasən, Azərbaycan və Gürcüstan ərazilərində istifadə haqqına 30 faiz endirim, Qazaxıstanda isə ödənişdən tam azadolma tətbiq ediləcək. Məqsəd marşrutdan istifadənin səmərəliliyini artırmaqdır. Bundan əlavə, "Qazaxıstan Dəmir Yolları" milli şirkəti "Azərbaycan Dəmir Yolları" QSC-yə vaqon dəstəyi göstərəcək.

Orta dəhlizlə yükdaşımaların həcmi ildən-ilə sürətlə artır. Ötən il TBNM ilə yük daşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. Marşrutun inkişafı istiqamətində həyata keçirilən tədbirlərin 2027-ci ilə qədər onun ötürmə qabiliyyətini 10 milyon tona qədər artırmağa imkan verəcəyi gözlənilir. Cari il üçün Orta dəhliz üzrə yükdaşıma planına əsasən, 4,2 milyon ton yükün nəqli gözlənilir. Bu yüklərin qeyd olunan həcminin 2,5 milyon tonu quru, 1,7 milyon tonu isə neft məhsullarının payına düşəcək.




Orta dəhlizə daha bir ölkə də qoşulur. O, Türkmənistandır. Bu məqsədlə Türkmənistan nəqliyyat dəhlizlərinin inkişafında Dünya Bankı ilə əməkdaşlıq edəcək. Rəsmi Aşqabad "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq multimodal nəqliyyat dəhlizlərinin inkişafında Dünya Bankı ilə əməkdaşlığa hazır olduğunu təsdiqləyib. Prezident Sərdar Berdiməhəmmədov da Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Antonella Bassani ilə görüşündə bu istəyini bildirib. O, Türkmənistanın strateji baxımdan əlverişli coğrafi mövqeyinin nəqliyyat-logistika sektorunun inkişafında əlverişli imkan yaratdığını deyib. Bildirilib ki, ölkədə müxtəlif nəqliyyat növləri üçün rabitə sistemlərinin formalaşmasına böyük əhəmiyyət verilir. Prezident hazırda "Şimal-Cənub" və "Şərq-Qərb" regional və beynəlxalq multimodal nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində görülən işlərlə bağlı Dünya Bankının konkret təkliflərini nəzərdən keçirməyə hazır olduqlarını da vurğulayıb.

Antonella Bassani həmçinin Türkmənistan Xalq Məsləhəti Şurasının sədri Qurbanqulu Berdiməhəmmədovla da görüşüb. Tərəflər logistika və nəqliyyat sahəsində əməkdaşlığı geniş müzakirə edib, beynəlxalq Trans-Xəzər daşımalarının intensivləşdirilməsinin zəruriliyi barədə razılığa gəliblər. Yeri gəlmişkən qeyd edək ki, Avropa və Asiya regionlarını birləşdirən Türkmənbaşı Beynəlxalq Dəniz Limanının tranzit imkanlarını artırmaq üçün böyük potensialı var.

Artıq Avropada Orta dəhlizin imkanları yüksək qiymətləndirilir. Avropa İttifaqı-Mərkəzi Asiya arasında nəqliyyat əlaqələrinə dair Qlobal Tranzit İnvestorlar Forumunda Avropa və Mərkəzi Asiyanı birləşdirən Trans-Xəzər nəqliyyat dəhlizinə 10 milyard avroluq investisiya öhdəliyinin elan edilməsi də bunu təsdiqləyir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 8 mart (№ 52).- S.15.